

**HÜSEYNBALA MİRƏLƏMOV,**
Azərbaycan Qaz Emalı Zavodunun direktoru

## HEYDƏR ƏLİYEV: TARİX GÜZGÜSÜNDƏ DƏYƏRLİ ANLAR

*(Publisistik düşüncələr)*

Dünyanın sənət korifeyləri bəşəri yük daşıyır. Şübhəsiz, bəşəri dəyərlərin yaşarılığında söz mühüm amildir. Bu mənada dünyada baş verən ədalətsizliklərin köklərini sözün gücsüzlüyündə görürəm. Elə ona görə də baş verən müharibələr, tökülən günahsız qanlar üçün söz sahibləri də məsuliyyətdən kənarda qala və özlərini mənəvi olaraq günahkar saymaya bilməzlər. Bəlkə də kimsə tarixin gedişində xüsusi əhəmiyyət kəsb edə biləcək hansısa bir sözü məqamında deməyib, yaxud da deyə bilməyib. İndi Azərbaycanın mənəvi mühitində baş verən dəyişikliklərin, həm də demokratik dəyişikliklərin ayaq açıb kifayət qədər inamla addımladığını kimsə dana bilməz.

Senzura yoxdur. İndi hər bir yazarın mənəvi, vicdani senzoru öz içində yaşayır. Başqa sözlə, bu senzor məcazi mahiyyət daşıyır. O vicdanın səsi, vicdanın tələbidir. Yəni mənəvi dəyərlərimizlə uyuşmayan qeyri-əxlaqi nə varsa, qələm ona qadağa qoymalıdır. Təəssüf ki, bəzən vicdanın səsini boğanlar da tapılır.

Azərbaycanın siyasət tarixində Heydər Əliyev fenomeni daim diqqət mərkəzində olacaq. Onun haqqında dəyərli, elmi, bədii əsərlər yazılacaq, filmlər çəkiləcək. Ancaq unutmaq olmaz ki, belə bir insan haqqında yazmaq, yüksək elmi-bədii dəyər kəsb edən sənət əsəri yaratmaq hər kəsdən, hər bir vicdanlı qələm sahibindən xüsusi məsuliyyət tələb edir.

Ucuz söz dəyərli incini dəyərləndirmək iqtidarında deyildir. Belə söz qafiyəpərdazlıq olaraq qalacaqdır. Bəzən elə şit, bayağı yazılar oxuyur, ekrandan, efirdən eşidirsən ki, onun müəllifinin boğazdan yuxarı danışması, qeyri-səmimi münasibəti oxucu kimi, dinləyici kimi səni qəzəbləndirməyə bilmir. Sözün ürəklərə yol tapması üçün onun müəllifində yanğı olmalıdır. Yanğı isə yox yerdən ola bilməz. Bunu sözün sahibinin ədəbi qəhrəmanına sevgisi şərtləndirir. Sevgi yoxsa, yanğı da olmayacaq. Bu sətirlərin xüsusi duyğu ilə qələmə alınmasının əsas səbəblərindən biri də Azərbaycan prezidentinin qəlbindəki yanğını duymağımdır: "Müstəqilliyə nail olmaq və həyatın bir çox sahələrində köklü dəyişikliklər etmək çox çətin və məsul bir prosesdir. Müstəqilliyi elan etmək, onun qorunması və möhkəmləndirilməsi istiqamətində dövlət tədbirləri həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq üçün bu, hələ azdır. Gə-



rək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun. Bunun üçün isə o, ilk növbədə yüksək mənəviyyata malik olmalıdır, xalqımızın milli-mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir. O, azərbaycançılığın, mənsub olduğu Azərbaycan xalqının mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir. Bu, çox mühüm məsələdir. Bizim bu gün təhsilimiz də, mədəniyyətimiz də, incəsənətimiz də məhz Azərbaycanın dövlət müstəqilliyinə xidmət edərək, əsl vətəndaş tərbiyə olunması prosesinə cəlb edilibdir. Azərbaycan müstəqilliyinin dönməz və əbədi olmasının əsas mənbəyi və təminatçısı məhz Azərbaycan gəncliyidir". Bu sözləri prezident Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında" dedi.

Əsrlərin yol ayrıcında deyilmiş həmin sözlər bütün gələcək boyu öz dəyərini saxlayacaq.

Trafaret düşüncə tərzi yanğılı söz deyə bilməz. Qələmə aldığım düşüncələrimdə bilərəkdən zamanla, dövrlə bağlı olaraq həllini tapacaq problemlərdən söz açmayacağam. Çünki ölkənin iqtisadi problemləri həll olunduqca, bunlar da öz həllini tapacaq. Biz artıq öz həyatımızda bunu hiss edirik.

***

Mən sabaha alnı açıq gedən insanı tərənnüm edirəm. Açığı, bundan qürur duyuram.

Mən zaman-zaman təqdir ediləcək sözü və bu sözün sahibini işıq tuturam.

***

Cəmiyyətin tarixi faciələr tarixidir, insanların əzab və əziyyətlər hesabına keçib gəldikləri yolun özüdür. Bütün xalqların, millətlərin hamısı cəmiyyətin törəməsi olduğundan bu əzab və iztirablar onların da taleyinə xasdır.

Bəlkə də, dünya xalqları içərisində ən faciəli tarix yaşamış Azərbaycan xalqı haqqında danışanda milli təəssübkeşlikdən əlavə ağır düşüncələr içindən keçməli olursan.

Ən başlıcası, Azərbaycanın son onillikdəki dəhşətli olayları təhlil süzgəcindən keçəndə qarşılaşdığın nəticə səni sarsıtmaya bilmir.

1993-cü ilin dəhşətləri istiqaməti haqqında danışmaq bəlkə də çox asandır. Hərçənd ki, həqiqətləri öz zamanında danışmağın özü də çətindir. Ancaq danışmaq bir şeydir, tarixin istiqamətini yönəltmək, ona mənsub olduğun xalqın mənafeyinə uyğun yol göstərmək, başqa sözlə, axına qarşı üzmək, sözçülük olmasaydı, deyərdik ki, bu axını öz arxanca çəkib apara bilmək tamam başqa şeydir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ölkəni başı üstündə asılmış "Zevs daşı"ndan xilas etdi. Qədim mifə görə, Zevs Tantalı yolundan sap-

dığına görə, cəzalandırmış, onun başı üstündə ağır bir daş asmışdır. Bu daşı nə vaxt Tantalın başına atacağı hüququnu özündə saxlamaq şərti ilə.

Vaxtilə Ali Sovetin sessiyasında Yaqub Məmmədovun - "Azərbaycanı parçalamaq planları var" - sözlərinin mahiyyətini sonralar, bəlkə də 1993-cü ilin olaylarında çoxumuz dərk etdik. Yəni ki, uçurumun astanasına çatanda. Azərbaycanı bir neçə istiqamətdə hədələyən təcavüzkarlıq niyyətləri, Azərbaycanı unitar dövlətdən məhrum etmək istəkləri məhz həmin günlərdə aydın göründü.

Artıq həmin günlərdə faciə həqiqətə çevrilməkdə idi. Və tarix xilaskara "hamilə" idi. Diletantların acizliyi, Azərbaycanı xilas etmək yolunda bu acizlikdən doğan fərsizlikləri açıq-aydın göründü.

Cəmiyyətin düşdüyü bəlanı dərk edən, cəmiyyəti bu bəladan xilas edə bilən insan mənəviyyatı ilə doğulduğu torpağa bağlı olan adamların arzuladığı şəxs ola bilərdi.

Tarixin üzgörənlik etmədiyini, tarixin saxtakar olmadığını təsdiq etməyən tarixçi yoxdur. Əgər belədirsə, son 20 yüzillikdə Azərbaycanın faciələrini də, Azərbaycanın fərəhli günlərini də, dövlətçiliyinin sürətli inkişaf anlarını da danmağa kimsənin gücü çatmaz. Azərbaycanın 93-cü ildəki taleyi haqqında danışanda, həmin günlərdə ölkənin tufanlar qoynundakı sükansız gəmiyə bənzədildiyini də yaddan çıxara bilmərik.

Heydər Əliyev siyasi fenomen kimi Azərbaycan tarixinin həqiqətidir. Həqiqətlər isə bütün nisbiliklərə baxmayaraq, tarixin sınaqlarından üzüağ çıxır.

***

Dünyanın siyasət xadimləri sırasında Heydər Əliyev obrazı öz parlaqlığı ilə diqqəti cəlb edir. Bu siyasi fenomenin işığının bu qədər gur olmasının səbəbləri çoxdur. O, ən azı XX əsrin qüdrətli siyasi sütunlarından biridir. Bu barədə bir qədər sonra.

Dünyanın siyasi tarixində XX əsr, bəlkə də, ən ziddiyyətli, belə demək mümkünsə, ən çətin dövr hesab oluna bilər. Bu əsl təfəkkürlərin, dünya görüşlərin və siyasi quruluşların bir-birinin arxasınca inqilabi yolla dəyişməsi, çevrilməsi, dağılması və yenidən qurulması dövrü kimi zamanın yaddaşına hopur. Məlum məsələdir ki, müharibələri də, çevrilişləri də, mənəviyyat inqilablarını da hazırlayan, həyata keçirən, bu yoldakı əməllərinə görə təqdir olunan və cəzalandırılan da insandır. Bu mənada böyük insanların, başqa sözlə, qüdrətli şəxsiyyətlərin cəmiyyətin istiqamətləndirilməsindəki rolunu inkar etmək mümkünsüzdür. XX əsrin sonunda zaman xəlbir kimi çalxalandı. Və qüdrətli insanlar, öz xalqlarının qarşısında alnıaçıq olanlar zamanın bu xəlbirindən keçdilər. Bu mənada, zamanın nəhənglərin qüdrətini təsdiq etməkdən başqa yolu yox idi.

Fikrimi şərh etmək istərdim. Rusiya XX əsrin taleyində, xüsusilə, bu əsrin ağrı-acıları və faciələri baxımından mühüm rol oynamışdır. "Dünyanı sarsıdan 10 gün" (Con Rid) sonralar 70 il qədər uzandı və bu müddət ərzində milyonlarla



insan hələ XIX əsrdə mayası tutulmuş "kommunizm kabusu"nun qurbanı oldu. İndi bəşər nəsli silkinir. Cəmiyyətin inkişafına zidd mahiyyətdən təmizlənir və dünyanın özü durulma yolu seçir. Dünya bir-birinə zidd olan iki sistemdən yaxasını qurtarır. Elə bu məqamdaca qeyd etməliyik ki, öz ölkələrinin, xalqlarının və dövlətlərinin taleyində müstəsna rol oynamış şəxsiyyətlər öz adlarını tarixə əbədi həkk etmiş olurlar. XX əsrin son ilinin bir töhfəsini yada salmalıyıq. Rusiyada təzəcə çapdan çıxmış "XX əsrin 100 böyük rəhbəri" kitabı şərh etməyə çalışdığımız məsələnin təsdiqindən ibarətdir. Bu kitabda son yüz ilin süzgəcindən keçən adlar sırasında Azərbaycanın Prezidenti Heydər Əliyevin də adı var. Bəlkə də Azərbaycanın son 200 ildə bədxahı rolunda çıxış etmiş rus şovinizmi Azərbaycan prezidentinin adını həmin kitaba daxil etməzdi. Əgər əsrin son onilliyindəki tarixi hadisələrdə Azərbaycan prezidentinin müstəsna, biz deyərdik ki, nadir rolu olmasaydı. Diqqət edək: Atatürk, Adenauer, Buş, Vilson, Yeltsin, Mitteran, Nikson, Reyqan, Tettçer, Ruzvelt, Qol, Şirak, Çörçill, Eyzenhauer, Klinton, Mao Tsze Dun, Kol və Kennedi. Bəlkə də min illərdən sonra da bu siyahını pozmaq mümkün olmayacaq. Çünki xalqlar öz tarixlərini öyrəndikcə, həqiqətə daha çox yaxınlaşacaq. Və bu yaxınlaşma həqiqətin təsdiqi olacaqdır.

Qüdrətli insanların öz zamanlarında bədxahlarının da olduğunu inkar edə bilmərik. Dünyanın böyük siyasətçiləri, mütəfəkkirləri Azərbaycan prezidentinin Azərbaycan xalqının tarixi taleyindəki rolunu yüksək qiymətləndirdikləri kimi, bu bədxahlar bir çox hallarda Azərbaycan prezidentinin xilaskar rolunu danmağa cəhd etsələr də, həqiqəti etiraf etməyə məcbur olurlar. Rusiyanın kütləvi informasiya vasitələrində Azərbaycan prezidentinin ad günü münasibətilə verilmiş və bir çox hallarda qərəzli mövqe tutan məqalədən həmin etiraf məqamlarına nəzər salmaq pis olmazdı: "Bununla bərabər, bu ölkədə də böyük bazarın əlamətləri görünür: yeni yüksək səviyyəli otellər, mağazalar, əyləncə mərkəzləri yarandı. Yeni, müasir tipdə aeroport tikildi. Hər yerdə radiotelefonlu insanlara rast gəlmək mümkündür. Əcnəbilər də buraya axışmaqdadır: yerli əhali ilə birlikdə onlar da öz neft, qaz bizneslərini qururlar. Xəzərdə yeni tipli vışkalar ucaldılıb. Neftin istehsalı və Novorossiyskə, Türkiyəyə və digər ölkələrə göndərilməsi üçün terminallar tikilir. Azərbaycanda böyük miqdarda qaz da kəşf olunub. İndi bu qazı necə ixrac etmək haqqında düşünürlər. LUKOYL da burada yaxşı yerləşib. O azərbaycanlılara çoxlu sayda iş yeri və maaş verir. Arayış üçün: Azərbaycan xarici sərmayədarların cəlb olunmasında MDB üzrə birinci yeri tutur. Həm də "yeni yaranmış kapitalizmin qəlpələri" görünür. İşsizlər, qaçqınlar".

Doğrudur, Azərbaycanda işsizlər də var, qaçqınlar da. Bunun obyektiv səbəbləri məlumdur. Ancaq bir səbəbi də Azərbaycanda qaçqınlar ordusunun yaranmasının obyektiv səbəbini də həmin informasiya vasitəsi gərək qeyd edəydi. Axı, Qarabağın işğalı Rusiyanın imperiya xülyaları ilə yaşayan qüvvələrinin Ermənistana hərbi, siyasi və iqtisadi dəstək verməsinin nəticəsidir.

Əlbəttə, Azərbaycan həqiqətləri bu gün dünyada etiraf olunur. Hətta dostlarımızla bərabər düşmənlərimiz də bu həqiqətləri dana bilmirlər. Rusiya isə nə

qədər ki, şovinizm və imperiya xülyalarından əl çəkmir, öz qazdığı quyuya düşməkdən xilas ola bilməyəcək.

Müstəqil Azərbaycan özünü təsdiq edir. Demokratiya, bazar iqtisadiyyatı yolu seçmiş ölkə hərbi sistemini yenidən qurub başa çatdırmışdır. Öz torpaqlarını azad etmək iqtidarına malikdir. Sabit ictimai həyat, əmin mühit Azərbaycan xalqının ürəyindən olsa da, bədxahların kefinə soğan doğranır. Xilas edilmiş dövlətçiliyə güvənən xalq nəfəs alır...

Bəli, Azərbaycanda bədxahların dediyinin əksinə olaraq, gələcəyə inam, həyatın sürətlə dəyişəcəyinə inam var.

***

Dünyanın diqqət mərkəzində olan siyasi xadimlər haqqında danışmaq bir tərəfdən asan olsa da, ikinci tərəfdən çox çətindir. Ən azı ona görə ki, belə adamların bütün həyat və fəaliyyəti təhlilə çəkilir, ən müxtəlif tərəflərdən və müxtəlif mövqelərdən şərh edilir. Hər bir şərhin isə əsasında şübhəsiz ki, subyektiv münasibətlər də olmamış deyil.

Bizə elə gəlir ki, Azərbaycanın XX əsr tarixinin ikinci yarısında mühüm siyasi sima kimi özünü təsdiq etmiş Heydər Əliyevin siyasət aləmindəki danılmaz, aşkar yaradıcı fəaliyyəti bütün qərəzli subyektiv fikirlərin, qeyri-real, bəlkə də saxta münasibətin hamısının üstündən düz xətt çəkir. Yəni bu fəaliyyətin sahibi olan insanın həyatı bizim zəmanəmizin və bu zəmanənin insanlarının gözü qarşısında yaşanmışdır. Demək, sadəcə nəyisə qəbul etməmək və yaxud da onları kiçiltmək cəhdləri qərəzli münasibətin nəticəsi olardı.

1993-cü il. Bəlkə də həmin dövrü təhlil edən həqiqətləri nəsillərə çatdıracaq qiymətli tarixi əsər hələ yazılmayıb. Amma yəqin ki, 93-cü ilin Hüqosu doğulacaq və həmin əsərin baş qəhrəmanının Heydər Əliyev olacağına bugünkü nəsillər şübhə etməyə bilərlər.

Azərbaycanın min illər boyu qazana bildiyi ən böyük sərvət onun dövlətçiliyidir. Tarix boyu Azərbaycana qarşı təcavüzlərin hamısı dövlətçiliyin zəiflədiyi, mərkəzdənqaçma meyllərinin artdığı, güclündiyi məqamlarda mümkün olmuşdur. Sovet dövrünün idealizə olunmasının əleyhinə olsaq da, deməliyik ki, həmin dövrdə Azərbaycan dövlətçiliyinin güclü ənənələri formalaşmışdı. Bu ənənələrə demokratik məzmun verməklə qorumaq xüsusi məharət, siyasi təcrübə tələb edirdi. Təəssüf ki, demokratiya abhavasıyla hakimiyyətə gələnlər az qala bu ənənələri mənəm-mənəmlik iddialarına qurban verəcəkdilər. Həmin dövr, nə qədər acınacaqlı olsa da, deməliyik ki, düşüncələrə separatçılıq əhval-ruhiyyəsinin çökməsi ilə daha çox yadda qalır. Ayrı-ayrı siyasi qüvvələrin bir-birinə qarşı qanlı mübarizəsi Azərbaycanın ərazilərinin hərracına doğru aparırdı. Hətta bu günün özündə belə ayrı-ayrı bölgələrin, ərazilərin, rayonların işğal olunmasının günahlarını həmin qüvvələr bir-birinin arasında axtarır.



Bir halda ki, söhbət separat düşüncə tərzindən gedir, açıq danışmalıyıq. Heydər Əliyevin hakimiyyətə dəvət olunması tarixi şəraitin, çıxılmazlığın, labüd fəlakətdən qaçılmazlığın nəticəsi idi. Ən dəhşətlisi o idi ki, H. Əliyev həmin dövrün tarix səhnəsində elə adamların əhatəsində idi ki, onlar çox asanlıqla xəyanət edə bilərdi. Həmin adamların iç üzünün açılması üçün çox vaxt lazım olmadı. Heydər Əliyev beləcə separat düşüncə tərzinə qarşı ağlı və siyasi təcrübəsi ilə döyüşürdü. Onun ən böyük silahı aşkarlığa, ona dəstək verən xalqa güvənməsi oldu. Ən qəti addımlarını belə xalqdan aldığı razılıq əsasında atır, ciddi qərarların heç birini xalqdan gizlətmirdi. Bu, onun siyasi mübarizəsində əsas dəstxətti olaraq bu gün də qalır.

Separatizm - ayrılmağa çalışma, dırnaqarası müstəqilliyə can atmanın arxasında hansı xarici siyasi qüvvələrin dayandığı hər bir azərbaycanlıya məlumdur. Azərbaycanın prezidenti həmin dövrdə, əslində, həmin düşüncə tərzinə qarşı mübarizəyə başladı. Bu mübarizədə o, ancaq xalqa arxalanırdı. Məlum 93-cü ilin yay-payız hadisələrini, sonrakı dövrlərdəki oktyabr-94, mart-95 hadisələrini öz ağlı, siyasi təcrübəsilə aradan qaldıra bildi. Azərbaycan xalqı uzun əsrlər boyu həmin "kampaniyaları" zərərsizləşdirə bildiyinə görə, özü də demək olar ki, itkisiz zərərsizləşdirə bildiyinə görə Azərbaycan prezidentinə minnətdar olacaqdır.

***

Tarix heç kimin xidmətini unutmur. Onun yaddaşı elə sehirli qüvvəyə malikdir ki, yad təsiri qəbul eləmir, kimsənin xahiş və minnətinə möhtac deyil. Bu mənada tarix heç kimin xidmətini unutmadığı kimi, Heydər Əliyevin də Azərbaycan dövlətçiliyi uğrunda əvəzsiz mübarizəsini yaddan çıxarmayacaq. Bu gün müstəqil Azərbaycan dövlətinin mövcudluğuna görə xalq Heydər Əliyevi həmişə xüsusi ehtiram mərtəbəsində saxlayacaqdır. Söhbət tarixdən gedir. Yaddaşı zəif olan fərdlərdən yox. Yaddaşsızlara isə tarixi xatırlatmaq həmişə lazımdır.

SSRİ dağılandan sonra Azərbaycanda gedən siyasi proseslər zaman keçdikcə təhlilə çəkilir. Dəfələrlə çək-çevir edilir. Məhz bu çək-çevirlərin, təhlillərin fonunda bir həqiqət aydın görünür; Azərbaycana qarşı ərazi iddiaları zaman-zaman davam edən işğalçı siyasətin nəticəsidir. Dağlıq Qarabağda erməni separatçılarının baş qaldırması, milli xəyanətlər, torpaqların 20 faizinin müvəqqəti də olsa itirilməsi, daha başqa faciələr - bütün bunlar planlı və məqsədli şəkildə Azərbaycana qarşı yeridilən işğalçılıq siyasətinin tərkib hissələri idi. 1993-cü ilin yayında həmin böhranlı günlərdə Heydər Əliyevin hakimiyyətə qayıdışını xalqdan başqa, bir çox siyasətçilər də arzulayırdılar. Xalq böhrandan xilas olmaq naminə onun qayıdışını istəyirdi. Diletant siyasətçilər isə bəlkə də həmin böhranlı günlərdə çıxış yolu tapmayaraq, Heydər Əliyevi arzulasalar da, eyni zamanda onu tarixi şəxsiyyət kimi birdəfəlik vurub sıradan çıxarmaq üçün, böhran girdabında boğmaq üçün tarixi şans hesab edirdilər. Və həmin adamların niyyətləri tezliklə

üzə çıxdı. Azərbaycan torpaqlarının indiyədək işğaldan azad olunmamasından çıxış edərək, bu böyük simanın tarixi xidmətlərinin üstünə kölgə salmağa cəhd göstərirlər. Onsuz da heç nəyə nail ola bilməyəcəklər. Çünki tarix yaxşı bilir ki, torpağı işğaldan azad etmək onu yağı ayağına təslim verməkdən qat-qat çətindir. Ancaq buna baxmayaraq, Heydər Əliyev torpaqların işğaldan azad olunmasının nəzəri-siyasi hazırlığını demək olar ki, başa çatdırıb. Azərbaycanın mənəvi-siyasi birliyini təmin edib. Qüdrətli Azərbaycan dövlətinin yaranması üçün tam zəmin hazırlayıb. Azərbaycanın böyük yazıçısı Anarın "Azərbaycançılıq haqqında düşüncələr" adlı əsərindəki bir məqamı xatırlatmaq yerinə düşür: "XIX əsrdə Prussiyayla müharibədə məğlub olmuş Fransa Elzas və Lotaringiya əyalətlərini itirmişdi. Parisdə Barışıq meydanında bütün fransız əyalətlərini təmsil edən rəmzi heykəllər var. Bu əyalətlər itirildəndən sonra Elzas və Lotaringiya heykəllərinin üstünə örtük çəkiblərmiş. Ta Birinci Dünya hərbində Fransa Almaniyanı məğlub edib və əyaləti yenidən qaytarana qədər bu örtüklər açılmayıb. Almaniya məğlubiyyət aktına qol çəkdiyi vaqon tarixi bir yer kimi qorunub saxlanılmış və hikkəli Hitler İkinci Dünya müharibəsi illərində Fransanı işğal edərkən təmsilçi Peten hökuməti məğlubiyyət aktını həmin o vaqonda imzalayıb, alman qoşunları Parisin Yelisey çöllərində zəfər marşıyla addımlayıblar. Beş il sonra isə Almaniya darmadağın olub və Hitler bunkerində intihar edib. Paris də, Elzas da, Lotaringiya da, bütün Fransa da yenidən azad olub. Tarix Allahın səbridir. Hər xalqın taleyində qara günlər olur. Rusiya biabırçı Brest müqaviləsini imzalamağa, Türkiyə alçaldıcı Mudros anlaşmasına qol çəkməyə məcbur olublar, amma vaxt keçib, ədalət qalib gəlib və bu imzalanmış sənədlər tarixin zibil qutusuna atılıb".

Müdrik yazıçının bu fikirlərinə söykənib deyərdim: özünü Azərbaycana doğma övlad hesab edənlərin, Azərbaycanın əbədiyaşarılığının təminatçısı olan siyasi lider - Heydər Əliyevlə birliyi sayəsində Azərbaycan öz torpaqlarına tez-gec sahib olacaq.

...İstər-istəməz Heydər Əliyevin Azərbaycana qayıdışı uğrunda fədakarlıqla, bəzən həyatları bahasına mübarizə aparanların haqqında minnətdarlıqla düşünürsən.

***

Bir ideoloq, lider kimi H. Əliyevin gücü nədədir? Nəyə görə bədxah əleyhdarları onun bütün siyasi gedişlərindən vahimələnir, nəticə məqamı çatmamış öz dünya görüşlərinə, "məssəblərinə" uyğun qənaət hasil edirlər? Bir çox hallarda beləsləri heç öz dediklərinə də inanmırlar. Ən yaxşı halda "rəqibin ziyanına de, sənin xeyrinədi" prinsipini əsas götürürlər. Və bu bədbəxtlər bilmirlər ki, əslində, bununla H. Əliyevin siyasət meydanında nəhəng olduğunu təsdiq edir, onun qarşısında gücsüzlüklərini göstərmiş olurlar. Azərbaycan Respublikasının Prezidenti H. Əliyevin "əjdaha" olduğunu iddia edənlərdən də fərqli olaraq onun insan, azərbaycanlı və bir vətəndaş olduğunu unutmamaq şərti ilə bir



məsələni açıqlamaq istərdik: O, müasir dövrün insanlarından qeyri-adi istedadı ilə fərqlənir. Bu istedad nədə görünür? Ən birincisi, baş verən olaylara münasibətdə. Düzgün, prinsipial və ədalətli münasibətdə. Öz opponentlərindən fərqli olaraq Heydər Əliyev irəli sürdüyü ideyaların, fikirlərin, tezislərin gerçəkləşəcəyinə inanır. Ən başlıcası, bu gerçəkləşmənin yollarını görür. Və bununla da, Heydər Əliyevi tənqid etməyə cəhd edənlərin bütün niyyətlərini puça çıxarır. Azərbaycan prezidenti bütün nitqlərində, çıxışlarında faktlara söykənir. Müzakirəyə cəlb olunan məsələnin mahiyyətini tam öyrənir, bununla bağlı bütün faktları təhlil edir, eyni zamanda reallığa əsaslanır. Son onillikdə Azərbaycanın xarici siyasətinin müəyyənləşməsində neft strategiyasının rolu böyükdür. Hələ çox da bizdən uzaqlaşmamış keçmişdə həmin strategiyanın necə faciəli istiqamətdə inkişaf elədiyini bir çoxlarımız görürdük. Fəqət, hadisələrə təsir etmək imkanlarından məhrum idi. Əslində, Azərbaycan prezidentinin yenidən hakimiyyətə qayıdışının əsasında xalqın duyğusu xüsusi rol oynadı. İndi müstəqil Azərbaycan dövləti öz təbii sərvətlərinin sahibi kimi yeni neft strategiyasını uğurla həyata keçirir. Qısa zamanda Azərbaycan Dövlət Neft Şirkəti dünyanın böyük neft şirkətləri ilə çoxlu müqavilələr imzalamışdır. Və bu müqavilələrin həyata keçirilməsi üçün nəzərdə tutulmuş investisiyaların həcmi çox yüksək rəqəmlərlə hesablanır.

Bakıda "Xəzər-Neft-Qaz - 2000" Beynəlxalq Sərgisi və konfransının açılışı mərasimində Azərbaycan Respublikasının Prezidenti bu dəst-xətti tam açıqlamışdı: "Azərbaycan hüquqi, demokratik dövlətdir. Azərbaycanda demokratiyanın, qanunun aliliyinin təmin olunması üçün bütün işlər görülür və görüləcəkdir. Bunların özü də xarici investorların Azərbaycanda işləməsi üçün əsas şərtlərdən biridir".

Göründüyü kimi, Azərbaycan Respublikasının Prezidenti siyasi lider olaraq bütün addımlarını xalqın mənafeyi ilə uzlaşdırır və ən qısa zaman kəsiyində ölkədaxili iqtisadi problemlərin tam həllinə nail olmağa çalışır. Məlumdur ki, bu problemlər bir çoxlarının düşündüyü kimi, nə okeanın o tayında, nə də küçə və meydanlarda həll olunmur.

Bu problemlər Azərbaycan dövlətçiliyinə sədaqət, Azərbaycan xalqına sədaqət, milli ənənələri qorumaq, mənəvi dəyərləri uca tutmaqla həll oluna bilər.

Azərbaycan prezidenti bu amallara sadiqdir. Yuxarıdakı fikrimizə nəticə olaraq demək istərdik ki, onun gücü ağıla söykənməsində, həqiqətlərə arxalanmasındadır. Hələ uzun illər bizim xalqımız onun siyasi irsindən yaradıcılıqla bəhrələnəcəkdir.

...Elin gözü tərəzidir.

***

Heydər Əliyev Azərbaycan xalqının taleyində görkəmli şəxsiyyət, Azərbaycan dövlətinin tarixində qüdrətli siyasi xadim kimi yaşamaq haqqını hələ 70-80-ci illərdə qazanmışdı. Azərbaycanın Sovet imperiyasının tərkibində mümkün mənə-

vi müstəqilliyini təmin edən bu insanın həyatının sonrakı mərhələsi sözün həqiqi mənasında vətəndaş fədakarlığı idi. O, həyatını riskə qoyaraq, Gəncəyə getdi. Hadisələri öz gözləri ilə, yerindəcə görməyə çalışırdı. Ali Sovetin sessiyasında müxtəlif rəylərlə çıxış edənləri həqiqətə birmənalı yanaşmağa çağırdı. Bununla, artıq bütün ehtiyat imkanlarının tükəndiyini, ehtiyatsız bir hərəkətin Azərbaycan dövlətçiliyinin itirilməsi ilə nəticələnəcəyini diqqətə çəkirdi.

...Zaman keçdikcə tarixin sinəsinə vurulan yaralar qaysaq bağlayır, qismən sağalır, ancaq yaraların yeri "iqlimdən" asılı olaraq göynəməkdə davam edir. H. Əliyev ən ağır yaranı, namərdlərin vurduğu yaranı - Qarabağ yarasını sağaltmaq, torpaqlarımızı işğaldan azad etmək üçün bu gün də həmin gərginliklə mübarizəsini davam etdirir.

Son on ildə xalqın mütləq əksəriyyətinin səsi ilə Azərbaycanın prezidenti olmuş H. Əliyev xalqın iqtisadi, mənəvi dirçəlişinə nail olmuşdur. Eyni zamanda xalq - azadlığına qovuşmuş müasirlərimiz onun simasında dərk etdi ki, populizm yolu ilə tanınmaq başqa şeydir, siyasi təcrübə, müdriklik yolu ilə dövləti idarə etmək tamam başqa şeydir.

İnanırıq ki, gələcəyin siyasətçiləri siyasi baxışlarından asılı olmayaraq, əgər Azərbaycanın milli maraqlarına söykənəcəklərsə, Heydər Əliyevin 93-cü ilin olaylarındakı xidmətlərinə abidə olan 15 iyun - Milli Qurtuluş günü abidəsinə iftixarla yanaşacaq, bu günü qürurla yaşayacaqlar.

...Qayıdış xalqın nicatı idi.

***

Memarı yaşadan əməlləridir.

Daş Kitabədə zəmanəmizə çatmış belə bir ifadə var: "Dünyaya bəxş etdiklərimizlə əbədiləşdik". Bu müdrik sözləri zamanın sınağından çıxaran, onun nüvəsinə hopmuş mahiyyətidir. Deməli, insanı yaşadan onun əməlləridir. Azərbaycan dövlətinin quruculuğu yolunda hər cür əzab-əziyyətlərə, məşəqqətlərə sinə gərən Azərbaycan xalqı dünyanın çalxalandığı bir zamanda hakimiyyətə gəlmiş Heydər Əliyevin böyük siyasi təcrübəsinə arxalanmaqla bu vəzifənin öhdəsindən gələ bildi. Təsadüfi deyil ki, biz burda dövlət quruculuğunun müəllifi kimi Azərbaycan xalqının adını çəkdik. Qüdrətli siyasi xadimlərin xalqların taleyində xüsusi rolu var. Bu mənada, Heydər Əliyev də Azərbaycan xalqının taleyində istisna deyil. Qlobal vəziyyətləri isə yerinə yetirən xalqdır. Ancaq bu vəzifələri yerinə yetirmək üçün xalqı səfərbər etmək, onu inandırmaq lazımdır. Pərən-pərən düşmüş, məğlubiyyət acısını dadmış, öz gücünə inamı itirmiş Azərbaycan Silahlı Qüvvələrini yenidən mütəşəkkil, nizami qaydada qurmaq üçün həyatın və siyasətin, hərbin sirlərini bilən komandana zamanın və xalqın ehtiyacı var idi. Gəlin görək, onun keçdiyi siyasi təcrübə yolu böyük məktəb olmasaydı və xalq müqəddəs ideyalar yolunda birləşdirilməsəydi, bu nəhəng vəzifənin öhdəsindən gələ bilərdimi? Azərbaycan mentalitetinə, mənəviyyatına dərindən bələd olan, məhz bu qazanda bişən xarakterin sayəsində xalq düşdüyü girdabdan çıxa bilərdi. Heydər Əliyevi hakimiyyətə gətirən yolları axtaranlar məhz bu məqamlarda diqqət göstərsəydilər, onlara çox şey aydın olardı.



26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr günü kimi qeyd olunur. Azərbaycan dövlətinin varlığını, mövcudluğunu və müstəqilliyini Azərbaycan ordusu olmadan təsəvvür etmək mümkün deyildi. Bu ordunun yaradılması üçün onun necə böyük enerji sərf etdiyini təsəvvürə gətirmək mümkündür. Ancaq burda bir məsələni xüsusilə qeyd etməliyik. Azərbaycanın müstəqilliyə nail olması yolu çox əzablı olmuşdur. Eyni zamanda ordu yaradıcılığını, ordu quruculuğunu da həmin əziyyətlərin, əzablı yolların bir hissəsi saymalıyıq.

1993-cü ilin payızına qədər Azərbaycan ordusunun real vəziyyətini yada salmaq kifayətdir. Başıpozuq dəstələr, bir çox hallarda bir-birinə qarşı dayanan dəstələr bəzən, hətta vətənin mənafeyini belə unudurdular. Azərbaycan torpaqlarının bölünməzliyi və bütövlüyü uğrunda fədakarlıqla döyüşə atılan minlərlə vətənpərvərin ülvi duyğularını uca tutmaqla bizdən çox da uzaqlaşmamış tarixi keçmişimizə üz çevirməyimiz təsadüfi deyil. Bir-birinin arxasınca dəyişdirilən müdafiə nazirləri demək olar ki, əsaslı dəyişikliklərə nail ola bilmədilər. Və bir sözlə, Azərbaycan ordusunu yarada bilmədilər. Həmin dövrdə Azərbaycanın parçalanmaq təhlükəsi qarşısında qalması, elə orduda yol verilmiş əyintilərin, qanunsuzluqların nəticəsi idi. Bu gün Azərbaycanın güvənc yeri olan nizami və qüdrətli ordusu var.

Azərbaycan ordusunun Ali Baş Komandanı Azərbaycan mənafeyi uğrunda əsgər fədakarlığı ilə döyüşür. Bu döyüşün özü onun yaratdığı ordunun hər bir əsgəri üçün ən bariz nümunədir. Əsl sərkərdə ordunu yaratdığı kimi, onu qorumağı da bacarmalıdır. Ordusu qorunan Vətənin özü də qorunar.

Demək, babalarımız əməlləri haqqında müdrik sözləri daş kitabəyə əbəs yazmayıblar...

***

Əsas körpü kimin çiynidir?

Hər bir azərbaycanlının taleyüklü vəzifəsi nədir? Bu ritorik suallar qələmdən təsadüfən keçmir. Azərbaycan prezidentinin şəxsi nümunəsində dilimizə, Vətənimizə, milli mənafelərimizə vətəndaş münasibəti bu məqamda diqqətə çəkiləcəkdir. 2000-ci ilin iyun günlərində Azərbaycan prezidenti Moskvada Azərbaycanlıların Ümumrusiya Konqresinin təsis yığıncağında dedi: "Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Azərbaycan dili dövlət dili elan olundu. Bundan doqquz il keçir. İndiyə qədər də Azərbaycanda, Bakıda azərbaycanlılar var, hətta dövlət işində çalışan azərbaycanlılar var ki, bizim müxtəlif iclaslarda, toplantılarda xahiş edirlər ki, öz fikirlərini daha dəqiq ifadə etmək üçün onlara imkan verilsin, rus dilində danışsınlar. Mən isə neçə dəfə onları xəbərdar etmişəm ki, sizə bir az da vaxt verirəm, ancaq əgər o müddətdə də öz ana dilinizi, döv-

lət dilinizi öyrənə bilməsəniz, bundan sonra dövlət işini tərk edəcəksiniz. Ondan sonra hansı dildə danışırsınız-danışın". Bu, birmənalı prisipial münasibət ifadə edən sözlərlə prezident bu fikri vurğulayır ki, mübarizə davam edir. Mənəviyyatımız, dilimiz və nəticədə milli varlığımız uğrunda mübarizə.

Söz yox ki, Azərbaycan dilinə münasibət uzun müddət Azərbaycana rəhbərlik etmiş şəxsin diqqətində olmalı idi. Məsələnin başqa tərəfi ondan ibarətdir ki, onun bu məsələyə vəzifə hissindən çox üstün olan vətəndaşlıq mövqeyindən yanaşmasıdır. Vaxtilə kommunist ideologiyasının dünyaya meydan oxuduğu illərdə Yazıçılar İttifaqında Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin yaradılması, mənəvi mühitin getdikcə yumşaldılması, habelə nisbətən stereotipləri qıran yazıçılara Mərkəzi Komitə səviyyəsində rəğbətli münasibət... bütün bunlarda H. Əliyevin vətəndaşlıq mövqeyi milli mənafelər baxımından münasibəti çox aydın görünürdü. Hər halda dünya ədəbiyyatının xəzinəsinə daxil ola bilən qiymətli ədəbi nümunələrin meydana çıxması üçün mənəvi mühitin yaranması, çətinliklərə baxmayaraq, milli-mənəvi dəyərlərimizin qorunmasında Azərbaycana rəhbərlik etmiş şəxsin əvəzsiz xidmətləri var. Bu, dilimizi, mənəviyyatımızı, Bakını, lap bütün məmləkəti beynəlmiləl ölkə kimi görmək istəyən imperiya qüvvələrinin caynağından xilas etmək idi. Elə həmin 2000-ci ilin iyun günlərində sənət adamları ilə görüşdə çox səmimi şəkildə onun öz dilindən səsləndi: "Siz bilirsiniz ki, mən əvvəllər - 70-ci illərdə də Azərbaycanın rəhbərliyində olanda həmişə fəaliyyətimin əsas hissəsi bundan ibarət olmuşdur ki, xalqımızda yüksək mənəviyyat bərqərar olsun. Çünki insan üçün mənəviyyatdan yüksək heç bir şey ola bilməz: nə mal, nə dövlət, nə pul, nə villa, nə milyon - heç bir şey olmaz. Bunlar hamısı dünyada gəldi-gedər şeylərdi. İnsanı yüksəldən, insanı insan edən, adamı adam edən və insanı vətəndaş edən onun mənəviyyatıdır".

Azərbaycanın tarixi taleyi keşməkeşli olduğu kimi, qəlbən xalqına, dövlətinə bağlı olan liderlərin də həyatı çox keşməkeşli olub. Çünki belələri öz həyatlarını mənsub olduqları xalqa həsr etdiklərindən xalqın çəkdiklərindən onlara da pay düşüb. Bir çoxları elə düşünür ki, Azərbaycan müstəqil dövlətdir. Bir canıyanan padşah lazımdır ki, bu xalqı elə bu saat süd gölündə üzdürsün. Əlbəttə, bu, çox sadəlövh bir münasibət olardı. Kimlərsə populizm xatirinə belə çıxışlarda bulunmaqdadır. Mənası da bulanıq suda nə isə axtarmaqdan ibarətdir. Azərbaycan prezidenti isə Azərbaycanın dünya mənəviyyatına qovuşması naminə özünün ciddi mübarizəsini dayandırmır. Elə bunun nəticəsidir ki, Azərbaycan sivil dünyaya doğru öz istiqamətini dəyişmir.

Prezidentin Vətənə, torpağa və dövlət müstəqilliyinə münasibəti çox dəyərli mənəvi sərvət kimi heç zaman dəyərini itirməyəcəkdir. Çünki bu sərvətin mayasında Azərbaycana məhəbbət və sevgilər durur.

"Bizim vətənimiz Azərbaycandır, o, bizim doğma torpağımızdır. Bu vətən nə dünən, nə də bu gün meydana gəlibdir. Bu vətən çoxəsrlik tarixə malikdir, bu vətən çoxəsrlik zəngin mədəniyyətə malikdir, bu vətəndə çox zəngin ənənələri, adətləri, öz xarakteri olan xalq yaşayır. Bu, xalqın xüsusiyyətidir, millətin



xüsusiyyətidir. Bu olmasa, millət də olmaz. Millət isə olmasa, insan nə dərəcədə ağıllı olsa da, hər halda naqis insandır. Ona görə də bizim vətənimiz Azərbaycandır. Bəli! Amma vətənimizi intellektual baxımdan daha zəngin, iqtisadi cəhətdən daha zəngin etmək üçün və vətənimizin daha çox tanınması üçün, vətənimizin dünyada, hər yerdə məşhur olması üçün insanlar vətənin hüdudlarından uzaqlara getməli və istədikləri yerdə məkan salmalı, istədikləri yerdə yaşamalı, istədikləri yerdə işləməlidir, ancaq vətənlə əlaqələri kəsməməli, vətəni unutmamalı və öz milli köklərini unutmamalıdırlar". - Bu müdrik fikirlərlə prezident hər bir azərbaycanlının taleyüklü vəzifəsini ən qiymətli siyasi vəsiyyətlər kimi Rusiyada yaşayan soydaşlarımızın timsalında dünyaya səpələnmiş azərbaycanlılara ünvanlayır.

Onun humanizmi, yeri gələndə bağışlamağı, əfv etməyi bacarması, xalqın mənafeyi tələb edirsə, sərt və prinsipial mövqedə durması artıq yaxın keçmişimizdə şahidi olduğumuz keyfiyyətlərdir. Və bunlar gələcək, daha geniş söhbətlərin mövzusudur.

Əlbəttə, bu qeydlər gələcək nəsillər üçün yazılır. Yazılır ki, gələcək nəsillər bilsinlər; nə qədər qərəzkarlığın, ambisiya və iddiaların əhatəsində yaşaya-yaşaya bu dövlət necə qurulub? Onun gələcək nəsillərə yetişməsində əsas körpü kimin çiyni olmuşdur?..

*20 fevral 2003-cü il.*